AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ

AZƏRBAYCAN MUZEYİ - 100

MUZEYŞÜNASLIQ KAFEDRASI

MUZEYŞÜNASLIĞIN TƏDRİSİ PROBLEMLƏRİ

III RESPUBLİKA ELMİ KONFRANSIN MATERİALLARI

BAKI - 2019

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ

MUZEYŞÜNASLIQ KAFEDRASI

"MUZEYŞÜNASLIĞIN TƏDRİSİ PROBLEMLƏRİ"

III RESPUBLİKA ELMİ KONFRANSIN MATERİALLARI

Konfrans Azərbaycan Respublikası Təhsil Nazirliyinin 08.II.2019-cu il tarixli F-69 saylı əmrilə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində keçirilmişdir.

Bakı – 2019

Redaksiya heyəti:

Mübariz Süleymanlı

Fəlsəfə elmləri doktoru, professor

Yeganə Eyvazova

ADMİU-nun Muzeyşünaslıq kafedrasının müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent

Məsul katib:

İlhamə Səfərova

Kulturologiya üzrə fəlsəfə doktoru, dosent

"MUZEYŞÜNASLIĞIN TƏDRİSİ PROBLEMLƏRİ" adlı III Respublika elmi konfransın materialları/ Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti – Bakı – 29 noyabr 2019

TƏŞKİLAT KOMİTƏSİ:

Ceyran Mahmudova	**ADMİU-nun rektoru, sənətşünaslıq üzrə elmlər doktoru, professor (sədr)**
Məryəm Əlizadə	**ADMİU-nun Elmvə yaradıcılıq işləri üzrə prorektoru, sənətşünaslıq üzrə elmlər doktoru, professor (sədr müavini)**
Validə Məmmədova	**ADMİU-nun Tədris işləri üzrə prorektoru, filologiya üzrə fəlsəfə doktoru, professor**
Gülşən Əliyea	**ADMİU-nun Beynəlxalq əlaqələrvə tərbiyə işləri üzrə prorektoru, professor**
Nailə Vəlixanlı	**Azərbaycan Milli Tarix Muzeyinindirektoru, akademik**
Şirin Məlikova	**Milli Xalça Muzeyininn direktoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent**
Vasif Adilov	**ADMİU-nun Kulturologiya fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru, dosent**
Yeganə Eyvazova	**ADMİU-nun Muzeyşünaslıq kafedrasının müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent**
Sədaqət Əliyea	**ADMİU-nun Sosial-mədəni fəaliyyət kafedrasının müdiri, kulturologiya üzrə fəlsəfə doktoru, dosent**

MÜNDƏRİCAT

Rəfael Hüseynov. Nizami muzeyinin milli-mənəvi dəyərlərin qorunması, təqdimi, təbliği və tədrisində xidmətləri 7

Şirin Məlikova. Sərhədsiz muzey 15

Əminə Məlikova. Ənənəvi sənətin inkişafında "İçərişəhər"in rolu 19

Ülkər Talıbzadə. Abdulla Şaiqin mənzil muzeyində ali və orta məktəblərlə əməkdaşlıq 24

Məlahət Fərəcova. Новые концепции исторических заповедников Азербайджана: интеграция в современный мир 29

Alla Bayramova. Müstəqillik dövründə Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin inkişafı 38

Mira Məmmədxanova. Одно из новых направлений в деятельности Азербайджанского Национального Музея Ковра 45

Zərifə Məlikova. Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzi ali təhsil ocaqlarının təcrübə bazası kimi 50

Yeganə Eyvazova. Muzeyşünaslığın tədrisində Böyük Britaniyanın Lester məktəbinin tədqiqatlarının rolu 55

Mübariz Süleymanlı. Azərbaycanda mədəni müxtəlifliyin qorunması 61

İlqar Hüseynov. Milli Azərbaycan Tarixi muzeyinə elmi-konseptual yanaşma 70

Elfira Məlikova-Qurbanova. XX əsrin ikinci yarısında (1950-1960-cı illər) Azərbaycanda muzey işində aparılan islahatlar 77

Sədaqət Əliyeva. Muzeyin kulturoloji təyini: muzeylik fenomeni 81

Bədircahan Məmmədova. Mədəni irsin qorunmasında Şəki ərazisindəki arxeoloji muzeylərin rolu 84

Minaxanım Əsədova. Görkəmli bəstəkar Qara Qarayevin ev muzeyinin yaradılmasında müasir texnologiyalardan istifadə 89

Günay Qafarova. История развития музейного дела в Азербайджане отраженная в архивных материалах. (на примере формирования АзГосмузея) 97

İlhamə Səfərova. Muzeyşünaslığın tədrisində arxivşünaslıq biliklərindən bəhrələnmə 109

Fariz Xəlilli. Azərbaycan muzeyinin 100 illiyinə töhfə: Basqal muzeyinin konsepsiyası 113

Faiq İsmayılov. Vandalizmə məruz qalmış Dağlıq Qarabağ muzeyləri muzey tarixi kursunun mövzusu kimi 118

Əntiqə Tağıyeva. Xalqımızın dünəni, bugününün daha bir əks sədası-Masallı tarix diyarşünaslıq muzeyi və keçdiyi inkişaf yolu 124

Mehriban İskəndərova. Azərbaycan muzey təcrübəsinin özünəməxsusluğu və bu təcrübədən tədris prosesində istifadə 129

Ülviyyə Əliyeva. Ənənəvi və müasirləşən muzey 134

Sübhi Kəngərli. Naxçıvanın Cəlil Məmmədquluzadə muzeyləri 138

Qənirə Pirquliyeva. Azərbaycanda muzey işinin tədrisi prblemləri və onların həlli yolları 143

Afət Allahverdiyeva. Muzeyşünaslığın elmə qədərki inkişaf mərhələsi 150

Nurlana Bağırova. Muzeyşünasların hazırlığında "Muzey işinin tarixi" kursunun yeri 154

Təranə Abdullayeva. Rəşid bəy Əfəndiyev adına Şəki tarix - diyarşünaslıq muzeyinin fəaliyyətinin milli mənəvi dəyərlərin təbliği kontekstində təhlili 157

Elçin Əsədov. Əraziləri işğal olunmuş Qarabağ muzeylərinin bu günkü fəaliyyəti 164

Esmira Rəhimova. Əzim Əzimzadənin yaradıcılığında xalq bayramlarını təcəssüm etdirən rəsm əsərlərinin muzey eksponatı kimi öyrənilməsinə dair 168

Nailə Əliyeva. Nizami muzeyinin maarifçilik missiyası 176

Mətanət Məmmədova. BDU-nun məzunları olan Əlyazmalar İnstitutunun fədakar alimləri və tədris prosesində onların fəaliyyətinin işıqlandırılması yolları 181

Elfira Hacıbaba qızı Məlikova-Qurbanova
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
ADMİU, Bakı
elfira.qurbanova@mail.ru

XX ƏSRİN İKİNCİ YARISINDA (1950-1960-CI İLLƏR) AZƏRBAYCANDA MUZEY İŞİNDƏ APARILAN İSLAHATLAR

Açar sözlər: tarix, qanunlar, muzey işi, abidə, metodiki yardım

Keywords: history, laws, museum work, methodological assistance

Ключевые слова: история, законы, музейная работа, методическая помощь

XX əsr Azərbaycanın keçdiyi tarixi yolun obyektiv şəkildə öyrənilməsi, sosial elm adamları üçün əsas məsələlərdən biridir.

1950-ci illərin ikinci yarısı muzeylər üçün istər ekspozisiya quruculuğunda, istərsə də kütləvi elmi-maarif işində çətin dövr idi. Sovet İttifaqı Kommunist Partiyasının qərarları bütün ideoloji müəssisələr üçün ümumi xətti müəyyənləşdirərək yenidənqurmaya təkan verdi. Köhnə üsullarla işləyən muzeylər partiyanın qərarlarına söykənərək, yeni dövr yaradıcılığı işlərinə başladı.

Mədəniyyət nazirliyinin yaradılması Azərbaycanda muzeylərin, xüsusilə də, diyarşünaslıq muzeylərində aparılan yenidənqurma işinin səmərələşdirilməsinə təkan verdi. Azərbaycan KP MK və Nazirlər Soveti 1958-ci ilin sonunda mədəniyyət abidələrinin qorunması ilə qəbul edilən qanunların yerinə yetirilməsini müzakirə edərək nazirlik apparatında "Abidələr və muzeylərin qorunması" şöbəsinin açılması haqqında qərar qəbul etdi. Muzey spesifikasının klublar, parklar və s. yaradıcılığından fərqini nəzərə alaraq muzeylərmədəni-maarif müəssisələrinin İdarəçilik sistemindən ayırdı. Daha sonra Nazirlər Kabineti strukturunda həmin şöbə Təsviri incəsənət, abidələrin və muzeylərin qorunması idarəsinə çevrildi. Bədii muzeylərə rəhbərlik də həmin İdarəyə tapşırıldı (1, s.278).

Yenidənqurma muzeylərin işinə koordinasiya və konsentrasiya rəhbərliyinin obyektiv mütləqliyinin nəticəsi idi. Nazirliyin üzərinə-təkcə muzeylərdə aparılan gündəlik işlər deyil, respublikada muzey siyasətini yönləndirmək, konkret şərtlərlə muzeylərin əsas yaradıcılıq istiqamətlərini üzə çıxartmaq, muzeylərin kommunizm quruculuğu işində iştirak etməsinin daha effektiv formalarının müəyyən edilməsi kimi böyük məsuliyyət qoyulmuşdur. Nazirlik bu işi SSRİ mədəniyyət Nazirliyi və Rusiyanın Muzeyşünaslıq Elmi-tədqiqat institutu ilə sıx əlaqəli şəkildə həyata keçirirdi.

Muzeylərin yenidənqurulması işində muzeylərin qarşısına qoyulan həll edilməsi əsas olan məsələ və tələblərdən biri də muzey kadrlarının ixtisaslaşdırılması işi idi. Azərbaycanda mövcud olan şərait üçün bu şərt xüsusi əhəmiyyət kəsb etməklə, seminar formasının tətbiqinə üstünlük verildi. SSRİ Mədəniyyət Nazirliyinin Azərbaycanın muzey əməkdaşlarına laqeyd münasibəti onların ümumittifaq tədbirlərində yaxından iştirak etməməsi ilə müşahidə olunurdu. Bu vəziyyətə əlverişli şərait yaradan səbəblərdən biri də muzey əməkdaşlarının muzeyşüünaslıq biliklərinin zəifliyi ilə bağlı idi. Azərbaycanda muzey işçilərinin birinci seminarı respublikanın Mədəniyyət Nazirliyi və Azərbaycan tarixi Muzeyi tərəfindən 1957-ci ilfevralın 18-23-dəkeçirildi. Seminarın işində Bakı muzeylərinin əməkdaşları iştirak edirdi. Onlardan: Azərbaycan Tarixi, Nizami adına Ədəbiyyat, Xalq Təsərrüfatı, Teatr muzeyləri, eləcə də bütün diyarşünaslıq muzeylərinin direktor və Mədəniyyət Nazirliyinin nümayəndələri iştirak edirdi. Seminarda 17 məruzə dinlənilmiş, Bakının ən yaxşı muzeylərin ekspozisiyalarına baxış keçirilmişdir.Məruzə və xüsusi hesabatlardan əlavə xüsusi dəvət edilmiş mütəxəssislər bir sıra məruzələrlə çıxış etmişlər. Məsələn, "Diyarşünaslıq muzeylərinin bədii tərtibatı haqqında" («О художественном оформлении краеведческих музеев»), "Tarixin öyrənilməsində numizmatik materiallartın rolu" («Роль нумизматических материалов для изучении истории»), "Respublika əlyazmalar fondunun topluları haqqında" («О собраниях республиканского рукописного фонда») və s. (2.).

Azərbaycan tarixi Muzeyinin yığıncağında çıxış edərək, deyilən tələblərdən irəli gələn və Mədəniyyət Nazirliyinin razılığı ilə 1958-1959-cu illərdə Nuxa, Şamaxı, Naxçıvan və Quba şəhərlərində diyarşünaslıq muzeylərinin ekspozisiyalarında yenidənqurma işləri aparıldı. 1959-cu ilin dekabrında Kirovabadda (hazırda Gəncə) növbəti olaraq keçirilən muzey işçilərininseminarında Tarix Muzeyin direktoru M.A.Qaziyev tərəfindən verilən hesabatın məzmunu bu yığıncağın əsas qayəsini təşkil edirdi. Analoji seminar növbəti illərdə də keçirilmişdir. Bu proses tədricən hər il keçirilən "hesabatlar konfransı" xarakterini aldı ki, bu diyarşünaslıq muzeyləri üçün çox əhəmiyyətli olsa da, ilk seminarda nəzərdə tutulan işin qayəsini daraldırdı (3.).

Lakin, buna baxmayaraq muzey işinin səviyyəsinin artması, muzeylərin Mədəniyyət Nazirliyi sistemində konselidasiyası, seminarların tematikasını konkretləşdirərək muzey yaradıcılığının müxtəlif aspektlərinədaha da dərindən nəzərin salınmasına şərait yaratdı. 1964-cü ilin yazında respublikada Nazirlik tərəfindən keçirilən seminarın işi buna misal ola bilər. Seminar respublika muzeylərində kütləvi elmi-maarifləndirmə işlərin aparılmasına həsr edilmişdir (4.).Seminarlar keçirilərkən Azərbaycanın Mədəniyyət Nazirliyinin və Muzeyşünaslıq Elmi-tədqiqat İnstitutunun bu tədbirdə iştirak etməsi tədbirin ciddiliyinə işarə idi.

Seminarların keçirilməsi ilə bərabər, muzey əməkdaşları eyni zamanda 1959-1960-cı illərdən başlayaraq hər il digər respublikaların muzey fəaliyyəti, yəni təcrübəsi ilə yaxından tanış olmaq

üçün şəhərlərə ezam edilirdi. Azərbaycanın muzey əməkdaşları Moskva, Leninqrad, Kiyev, Tibilisi, Lvov, Yerevan,Tallin, Kaunas, Odessa, Minsk və digər şəhərlərdə fəaliyyət göstərən muzeylərdə kolleqaları ilə dəfələrlə görüş keçirmişlər. Bu onların dünyagörüşünün genişlənməsinə, xüsusilə ekspozisiya zallarının dizaynı, eksponatların təqdimatını və digər işlərin öyrənilməsinə yardım edirdi. Ən əhəmiyyətli faktlardan biri də o idi ki,nəticədə Azərbaycan muzeylərinin əməkdaşları, SSRİ Mədəniyyət Nazirliyinin keçirdiyi seminarın işinə və yığıncaqlarına dəvət alma səlahiyyəti qazandı. Qeyd etmək lazımdır ki, Muzeyşünaslıq üzrə elmi-tədqiqat institutunun mütəxəssisləri və bütün ölkədən olan ixtisaslaşdırılmış praktik-muzeyşünaslar məhz belə tədbirlərdə iştirakı işi daha da keyfiyyətli etmiş olurdu (1, s.280).

Metodiki mərkəzin fünksiyasını yerinə yetirən respublika Mədəniyyət Nazirliyi hər il metodiki vəsaitləri hazırlayaraq muzeylərə göndərirdi. Təbii ki, metodiki yardımların daha çox ünvanlandığı yer tarixi-diyarşünaslıq muzeyləri idi. Metodiki vəsaitlər muzeylər üçün aktual məsələlər olan: kütləvi işin təşkili, sovet dövrü şöbəsinin təşkili, muzeylərdə elmi iş planlarının tərtibinə və problemlərə həsr edilmişdir. Metodiki vəsaitlər tərtib edilərkən Muzeyşünaslıq Elmi-tədqiqat instuitutundan daxil olan böyük həcmdə materiallardan istifadə edilmişdir ki, bu da metodiki təhlillərin keyfiyyətini əhəmiyyətli dərəcədə artıraraq Azərbaycan muzeyləri qarşısında ümumi tələblərin qoyulmasına imkan yaratdı.

İstifadə olunmuş ədəbiyyat

1.Очерки истории Музейного дело в СССР. Выпуск VIIиздательство «Советская Россия», Москва, 1971.

2.Программа семинара музейных работников республики. Баку, 1957; Научный архив Госмузея истории Азербайджана.«Труды Госмузея истории Азербайджана» т. III, 1960.

3.Материалы по истории Азербайджана, т. V, Баку, 1962.

4.Материалы по массовой научно-просветительной работы музеев. М., 1965.